# Müəllimin pedaqoji üslubunun şagird şəxsiyyətinin inkişafına təsiri

**Səbinə Əsəd qızı Hacılı**
*Bakı Dövlət Universiteti*
**E-mail:** sabinahacili2@gmail.com

**Rəyçilər:** psixol.ü.f.d. S.H. Əlizadə,
psixol.ü.f.d. M.H. Mustafayev

**Açar sözlər:** müəllim, pedaqoji qabiliyyət, pedaqoji ünsiyyət, pedaqoji üslub, müəllim modelləri

**Ключевые слова:** учитель, педагогические способности, педагогическое общение, педагогический стиль, модели учителей

**Key words:** teacher, pedagogical ability, pedagogical communication, pedagogical style, teacher models

Müəllim pedaqoji prosesdə həlledici qüvvə kimi çıxış edir. Şəxsiyyətin ahəngdar inkişafı, ilk növbədə, müəllimin üzərinə düşür. Pedaqoji fəaliyyətdə müəllim şəxsiyyəti böyük əhəmiyyətə malikdir. Başqa peşə sahiblərindən fərqli olaraq müəllimin şəxsiyyəti onun işinə - pedaqoji prosesə bilavasitə təsir göstərir. Müəllim ilk növbədə, öz şəxsiyyəti ilə tərbiyə edir. Təlim-tərbiyə işində müəllimi heç kim əvəz edə bilməz. Öz işinin öhdəsindən uğurla gəlmək üçün müəllim əsl mənada şəxsiyyət olmalı, özündə müsbət keyfiyyətlər formalaşdırmalıdır. Müəllim pedaqoji prosesdə əsas sima kimi o zaman çıxış edə bilər ki, o, yüksək peşəkarlığa – pedaqoji qabiliyyətlərə yiyələnmiş olsun. Müəllimin peşə qabiliyyətləri sırasında akademik, didaktik, ünsiyyət, konstruktiv, təşkilatçılıq və iradi-emosional qabiliyyətlər mühüm yer tutur.

Akademik qabiliyyət - geniş və dərin biliyə malik olmaqda, elmin son nailiyyətlərini öyrənməkdə və şagirdlərə çatdırmaqda ifadə olunur.

Didaktik qabiliyyət - bilikləri öyrətmə bacarığında, pedaqoji-metodik ustalığa yiyələnməkdə özünü göstərir.

Konstruktiv qabiliyyət - özünün və uşaqların (kollektivin) fəaliyyətini düzgün planlaşdırmaqda, çətinlikləri əvvəlcədən duyub, onları aradan qaldırmağa hazır olmaqda ifadə olunur.

İradi-emosional qabiliyyət - müəllimin özünü, hisslərini düzgün idarə etməkdə, mülayimlik və ciddiliyi uzlaşdırmaqda, səbirli olmaqda ifadə olunur.

Ünsiyyət (kommunikativ) qabiliyyət - uşaqlarla, öz həmkarları və valideynlərlə düzgün ünsiyyət yaratmaqda, demokratik ünsiyyət üslubunda, hər bir uşağa fərdi yanaşma bacarığında ifadə olunur. Pedaqoji ünsiyyət müəllimin şagirdlərlə təlim və tərbiyə prosesində həyata keçirdiyi peşə ünsiyyətidir. Bu cür ünsiyyət hərtərəfli inkişaf etmiş şəxsiyyətin formalaşması üçün şərait yaradılmasına yönəlmiş olur, kollektivdəki sosial-psixoloji prosesləri idarə etməyə və səmərəli psixoloji iqlim yaratmağa imkan verir. Pedaqoji ünsiyyət, ümumiyyətlə, ünsiyyətin bütün xüsusiyyətlərini özündə əks etdirir. Pedaqoji ünsiyyətin yerinə yetirdiyi vəzifələrə görə onun aşağıdakı növlərini ayırmaq mümkündür: informasiya mübadiləsi, başqa adamların davranışını tənzim etmək, şəxsiyyətlərarası anlama. Pedaqoji ünsiyyətin hansı növündən istifadə edilməsindən asılı olmayaraq müəllimin şagird kollektivi ilə məhsuldar ünsiyyət prosesi təşkil olunmadan pedaqoji fəaliyyətin didaktik və tərbiyəvi vəzifələrini lazımi şəkildə həyata keçirmək mümkün deyildir.

Pedaqoji ünsiyyət müxtəlif məqsədlər daşıya bilər: fərdi-idraki (nə isə yeni bir şey öyrənmək, təlimat almaq), emosional (qiymətləndirmək, münasibəti bildirmək, təəssüratı bölüşmək) və s. Pedaqoji ünsiyyət zamanı məqsəd sadəcə olaraq elə ünsiyyətə girişmək, ünsiyyət saxlamaqdan da ibarət ola bilər. (məsələn, kiminləsə birgə olmaq, söhbət etmək). Bu cəhət şagirdlərin ünsiyyət fəaliyyətində özünü aydın şəkildə göstərir. Psixoloji tədqiqatlar göstərmişdir ki, kiçik məktəblilər üçün müəllim və yoldaşları ilə ünsiyyət xatirinə ünsiyyətə girmək xarakterik haldır. Onlarda ünsiyyət kifayət dərəcədə seçici xarakter daşımır. Kiçik məktəblilər heç də həmişə ünsiyyətlərinin məqsədini dərk edə bilmirlər. Yuxarı siniflərə keçdikcə şagirdlərin ünsiyyətində seçicilik müşahidə olunmağa başlayır.

Pedaqoji ünsiyyətin məzmununa gəldikdə isə, bunu ünsiyyət prosesində müəllim və şagirdin bir-biri ilə informasiya mübadiləsi təşkil edir. Ünsiyyətin məzmunu təlim prosesində müəllimin qarşıya qoyduğu məqsədlə müəyyən edilir. Ünsiyyət vahid məqsədə yönəlmədən, vahid məqsəd güdmədən səmərəli nəticə verə bilməz. Pedaqoji ünsiyyətin səmərəliliyi onun motivlərindən də asılıdır. Motivin düzgünlüyü və dərk edilmiş xarakter daşıması pedaqoji ünsiyyətin gedişini şərtləndirir. Pedaqoji ünsiyyət müvafiq normalar çərçivəsində getməlidir. Müəyyən normaların gözlənilməsi bir növ pedaqoji ünsiyyətin səmərəliliyini itirir və ünsiyyət istənilən nəticəni vermir. Müəllimin kommunikativ fəaliyyətinin öyrənilməsi göstərir ki, pedaqoji ünsiyyətin xarakteri və məzmunu müxtəlif amillərlə şərtlənir ki, bunlardan müəllimin fərdi ünsiyyət üslubu, mövqeyi ustanovkasını xüsusi qeyd etmək lazımdır. Bunlar bir növ ünsiyyətin vasitəsi rolunu oynayırlar. Müəllimlərin hamısında ünsiyyət üslubu eyni olmur. Konkret bir şəxsiyyət kimi hər bir müəllimdə ünsiyyətin təşkili priyom və metodları nisbətən sabit şəkildə cəmlənir. Kommunikativ məsələni həll etməyə yönəldilmiş bu cür davamlı keyfiyyətlər fərdi pedaqoji ünsiyyət üslubu adlanır.

Pedaqoji ünsiyyətin üslubları bunlardır: avtoritar, demokratik, liberal. Adətən avtoritar pedaqoji üslubuna malik olan müəllimlər pedaqoji ünsiyyətin təşkilində demək olar ki, eyni mövqe tuturlar. Bu cür rəhbərlik üslubuna malik olan müəllimlər şagirdlərə yalnız obyekt kimi yanaşırlar. Şagird ünsiyyətin bərabər hüquqlu tərəf müqabili kimi qəbul edilmir. Belə müəllimlər həmişə hökmran olmağa çalışırlar. Onlarla ünsiyyət zamanı şagirdlər təşəbbüskarlığı itirirlər. Bu cür ünsiyyət üslubuna malik olan müəllimlər ünsiyyət zamanı şagirdlərin fərdi xüsusiyyətlərini nəzərə almır, hamı ilə eyni ünsiyyət saxlamağa can atırlar. Onlar şagirdlərin fərdi xüsusiyyətlərini görsələr də tamamilə qeyri-real model qurur, həmin fərqi olduqca şişirdir, real hesab edirlər. Şagird başqalarına nisbətən bir qədər fəal olduqda, müəllimin gözündə o, iğtişaşçı kimi, bir qədər passiv olduqda isə tənbəl, avara kimi görünür. Belə müəllimlər üçün neqativ ustanovka, başqa sözlə şagirdə qarşı qeyri-şüuru, pis münasibət xarakterik haldır. Bu cür müəllimlər ünsiyyətdə seçici, qiymətləndirmədə isə subyektiv olurlar. Ona görə də bu cür ünsiyyət üslubu səmərəli xarakter daşıya bilmir.

Bu sahədə tədqiqat aparan müəlliflərin əksəriyyəti ən səmərəli ünsiyyət üslubu kimi demokratik üslubu qeyd edirlər. Belə rəhbərlik üslubundan şagird subyek kimi qavranılır. Bu cür rəhbərlik üslubuna malik olan müəllim şagird kollektivi ilə razılaşır. Qərar qəbul edərkən kollektiv və onun liderinin təklifini nəzərə alır. Məktəblilərin müstəqilliyini boğmur, şagirdlərə daim xahiş, məsləhətlə yanaşır, müsbət emosional əlaqəyə üstünlük verir. Bu cür ünsiyyət üslubuna malik olan müəllimlər şagirdlərin fərdi xüsusiyyətlərini və şəxsi təcrübələrinin, fəallıq və tələbatlarını nəzərə almağa çalışırlar. Belə müəllimlərdə neqativ ustanovka olmur və ya onu təzahür etmirlər. Onlar qiymətləndirmədə obyektiv, təmas yaratmaqda isə təşəbbüskardırlar. Təcrübə göstərir ki, pedaqoji ünsiyyətin demokratik üslubundan istifadə edən müəllimlərlə şagirdlər arasında olduqca səmərəli təmas yaranır. Şagirdlər bu cür müəllimlərlə ünsiyyətə

can atır, onlardan hər cür köməklik gözləyirlər.

Laqeyd və yaxud liberal rəhbərlik üslubuna malik olan müəllimlərin şagirdlərlə olan ünsiyyəti də kortəbii xarakter daşıyır. Burada ünsiyyətin xarakteri müəllimin özündən deyil, şagirdlərdən asılı olur, şagirdlər tərəfindən diktə olunur. Müəllimlə şagirdlərin qarşılıqlı ünsiyyəti nə qədər səmərəli olarsa, kollektivin idarə olunması, onun üzvlərinin tərbiyə işinin təşkili də bir o qədər səmərəli olacaqdır. Şagirdlərlə qarşılıqlı ünsiyyətin səmərəliliyinə görə müəllimləri şərti olaraq 4 qrupa bölmək mümkündür.

Birinci qrupa şagirdlərlə daima ünsiyyətdə olan müəllimləri aid etmək olar. Bu cür müəllimlər təkcə dərsdə, məktəbdə, təlimlə bağlı məsələləri həll edərkən şagirdlərlə ünsiyyətdə olmaqla kifayətlənmirlər. Bu cür ünsiyyət öz səmərəliliyi, müəllimin şagirdlərə inamı ilə fərqlənir. Həmin müəllimlər demokratik rəhbərlik üslubuna malik olurlar.

İkinci qrupa şagirdlərə hörmətlə yanaşan və şagirdlərdə onlara qarşı dərin inam və etimad mövcud olan müəllimlər təşkil edir.

Üçüncü qrupa daxil olan müəllimlər, adətən, şagirdlərlə yaxın ünsiyyət saxlamağa cəhd göstərir, bu cür ünsiyyətə can atırlar. Lakin bu cür ünsiyyətə nail ola bilmirlər. Bu cür ünsiyyətin baş tutmamasının səbəbinə gəldikdə, onlar vaxtın çatmaması üzündən öz cəhdlərini həyata keçirə bilmirlər. Bu cür müəllimlər arasında avtoritar rəhbərlik üslubuna malik olanlar tez-tez özünü göstərir.

Dördüncü qrupa gəldikdə, buraya daxil olan müəllimlər şagirdlərlə ünsiyyətə can atmadıqları kimi, dərs dedikləri şagirdlər də onlarla yaxın ünsiyyətə, ürək sözlərini deməyə, onlarla məsləhətləşməyə meyl göstərmirlər.

Pedaqoji ünsiyyət zamanı müəllimin mövqeyi də mühüm vasitə rolunu oynayır. Adətən, müəllimin tutduğu mövqe onun ünsiyyətinə əsaslı təsir göstərir. Müxtəlif üsluba malik olan kommunikativ qarşılıqlı təsir müəllimin dərsdə şagirdlərlə ünsiyyətində bir sıra davranış modelinin meydana gəlməsinə səbəb olur. Psixoloqlar (L.D. Stolyarenko və b.) şərti olaraq bu modellərə aşağıdakıları aid edirlər:

1. Diktator model ("Monblan"). Bu cür müəllimlər dərs dedikləri şagirdlərdən (tələbələrdən) bir növ təcrid olunurlar. Onlar yalnız şagirdlərə (tələbələrə) bilik vermək, öz hazırlıq səviyyələrini nəzərə çarpdırmağa çalışırlar. Şagirdlər onun üçün yalnız adi dinləyici kütləsi olur. Onların arasında heç bir qarşılıqlı təsir mövcud olmur. Müəllimin pedaqoji funksiyası yalnız məlumat verməklə məhdudlaşır. Nəticədə psixoloji təmas olmur, buradan isə şagirdin, tələbənin təşəbbüskarsızlığı, passivliyi yaranır.

2. Təmassız model ("Çin səddi"). Bu cür model özünün psixoloji məzmununa görə birinciyə yaxın olur. Fərq ondan ibarətdir ki, bu modeldə müəllim və şagirdlər arasında azacıq da olsa zəif əks əlaqə yaranır. Əks əlaqənin zəifliyi ixtiyari və ya qeyri-ixtiyari ünsiyyət maneəsi ilə bağlı olur. Bu cür maneə rolunu tərəflərdən birinin əməkdaşlıq arzusunun olmaması, məşğələnin dialoq xarakterində deyil, yalnız məlumatı çatdırmaqla məhdudlaşması, müəllimin qeyri-ixtiyari olaraq öz statusunu qeyd etməsi və s. oynaya bilər. Bu cür müəllimlər öz mövqeləri ilə hər cür başqa mülahizələri rədd edirlər. Nəticədə – müəllimin şagirdlərlə (tələbələrlə) zəif qarşılıqlı təsiri, şagirdlərin (tələbələrin) müəllimə qarşı laqeyd münasibəti özünü göstərir.

3. Fərqləndirici diqqət modeli ("Lokator"). Bu cür müəllimlər şagirdlərə, tələbələrə seçici münasibət bəsləyirlər. Onlar bütün sinfə deyil, məsələn, yalnız talantlı və yaxud zəif şagirdlərə, tələbələrə diqqət yetirirlər. Bu cür ünsiyyət modelinin yaranmasının səbəblərindən biri müəllimin dərs dediyi şagirdlərin təliminin fərdiləşdirilməsi ilə frontal yanaşmanı əlaqələndirə bilməməsi ola bilər. Nəticədə – müəllim-şagird (müəllim – tələbə) kollektivi sistemində

qarşılıqlı təsir aktı pozulur.

4. Hiporefleks modeli ("Tetra quşu"). Bu cür müəllimlər ünsiyyət zamanı sanki özlərinə qapılırlar. Özlərini dinləməyə meyllidirlər. Onların nitqi ən çox monoloji xarakter daşıyır. Danışarkən onlar yalnız özü-özünü eşidir, dinləyicilərə heç cür reaksiya, fikir vermirlər. Birgə iş zamanı da özünə qapılmış olurlar. Nəticədə – öyrədən və öyrənənlər arasında qarşılıqlı təsir praktik olaraq mövcud olmur. Müəllim və şagirdlər (tələbələr) arasında psixoloji vakuum sahəsi yaranır. Ünsiyyət prosesinin tərəfləri bir-birindən təcrid olunurlar.

5. Hiperrefleks modeli ("Hamlet"). Bu model əvvəlkinin bir növ əksini təşkil edir. Müəllim qarşılıqlı təsirin məzmununa deyil, ətrafdakıların onu necə qavramasına fikir verir. Bu cür müəllim dərsdə sanki özünü üzür. Daima öz arqumentlərinin həqiqiliyinə şübhə edir, hər şeyə ciddi reaksiya verir. Nəticədə – müəllimin sosial-psixoloji həssaslığı güclənir, kəskinləşir, sinfin replikasına və hərəkətinə qeyri adekvat reaksiya verir.

6. Dəyişməyən reaksiya modeli ("Robot"). Bu cür müəllimlər şəraitin dəyişməsinə baxmayaraq ünsiyyəti əvvəl planlaşdırdıqları şəkildə aparmağa can atırlar. Nəticədə – pedaqoji qarşılıqlı təsirin səmərəsi aşağı olur.

7. Avtoritar model ("Mən özüm"). Təlim prosesində bu cür müəllim yeganə və əsas iştirakçı olur. Sualı da, cavabı da, hökmü də o verir. Siniflə onun arasında yaradıcı qarşılıqlı əlaqə praktik olaraq mövcud deyildir. Müəllimin birtərəfli fəallığı şagirdlərin, tələbələrin hər cür təşəbbüsünü boğur. Şagirdlər, tələbələr özlərini yalnız icraçı kimi dərk edirlər. Onların idrak və ictimai fəallığı minimuma enir. Nəticədə – təşəbbüskar olmayan insanlar tərbiyə olunur. Təlimin yaradıcı xarakteri itir. İdrak fəallığının motivasiya sahəsi təhrif olunur.

8. Fəal qarşılıqlı təsir modeli ("İttifaq"). Bu cür müəllim şagirdlərlə, tələbələrlə daima dialoqda olur, onlarda major əhval yaradır, təşəbbüsü rəğbətləndirir. Qrupda psixoloji iqlimin dəyişməsini asanlıqla hiss edir və ona reaksiya verir. Özünün rol distansiyasını saxlamaqla dostluq əlaqələrinə üstünlük verir. Nəticədə – qarşıya çıxan tədris, təşkilati, etik problemlər birlikdə, hamının gücü ilə yaradıcı şəkildə həll olunur. Bu cür model daha məhsuldar hesab olunur.

Şübhəsiz pedaqoji ünsiyyət zamanı müəllim həqiqi müəllim, dost mövqeyi tutursa öz məqsədinə nail ola bilir. Müəllimin şagirdlərlə ünsiyyət və münasibətində əsas iki yanaşma üsulu vardır: 1. Neqativ yanaşma üsulu; 2. Pozitiv yanaşma üsulu. Neqativ yanaşma üsulu deyəndə, müəllimin şagirdi öz münasibətləri baxımından qruplaşdırmasıdır. Yəni müəllimlər özünə nəzərən bir qisim şagirdə yaxşı, bir qisminə isə pis münasibət bəsləməsidir. Onda belə bir əqidə vardır ki, pis şagird onsuz da dərsini bilmir. Belə şagirdlər dərsi öyrənsələr də, müəllim onların cavablarından heç vaxt razı qalmayacaq. Əgər belə şagirdlər bir yerdə, yəni izahda çətinlik çəksə də, müəllim onlara kömək etmir. Ona görə də belə şagirdlərdən əl götürərək yaxşı oxuyan şagirdi ayağa qaldırır. Pis cavab verən şagirdi danlayır, lakin belə şagirdlər yaxşı cavab verəndə də onlara heç nə demir. Pozitiv yanaşma üsulu dedikdə, müəllimin şagirdin qavrayışından asılı olaraq yaxşı uşaqları liberallıq göstərərək həmişə tərifləyir. Həmin şagirdlər bir söz deyərlərsə, müəllim onların üzlərinə gülümsəyir, tez-tez onlara müraciət edir. Sanki belə müəllimlər üçün sinifdə başqa şagirdlər yoxdur. Pozitiv yanaşma üsuluna malik olan müəllimlər şagirdləri yaxşı və pis deyə qruplaşdırırlar.

Müəllimin pedaqoji ünsiyyəti düzgün qurması üçün onun ümumi pedaqoji fəaliyyətinin düzgün qurulması vacibdir. Bu baxımdan müəllimin pedaqoji ünsiyyəti zamanı aşağıdakı vəzifələrin yerinə yetirilməsi vacib sayılmalıdır. Pedaqoji vəzifə müəllimlərin müəyyən şəraitdə həyata keçirdiyi məqsəddən ibarətdir. Bu vəzifələr belə şərh edilir: 1. Bütün müəllimlər üçün eyni olan vəzifələr; 2. Cəmiyyətin tələbindən irəli gələn vəzifələr; 3. Hər hansı bir sinfin, hər hansı tədris fənni ilə və ya şagirdlərin fərdi xüsusiyyətləri ilə əlaqədar yerinə yetirilən vəzifə-

lər. Bütün müəllimlər üçün eyni olan vəzifələr dedikdə, şagirdlərin sağlamlığı qayğısına qalması, onların dərslərini oxumasına cavabdeh olması, ailə ilə əlaqə saxlaması, pedaqoji tələblərin vahidliyini gözləməsi və s. başa düşülür. Cəmiyyətin tələbindən doğan vəzifələrə, şagirdlərin imkanını nəzərə alıb onların istirahətini və maddi vəziyyətini düzəltmək üçün direktorluq qarşısında məsələ qaldırmaq, dərsini müasir həyatla əlaqələndirmək, şagirdlərdə yaranan gərginliyi aradan qaldırmaq və s. aid edilir. Hər hansı bir sinfin, hər hansı tədris fənni ilə və ya şagirdlərin fərdi xüsusiyyətləri ilə əlaqədar yerinə yetirilən vəzifələr dedikdə isə müəllimin hər bir şagirdi yaxşı tanıması üçün onu müxtəlif üsullar vasitəsilə öyrənməsidir. Pedaqoji fikirlərdən də aydın olmuşdur ki, uşaqları tanımadan, onları yaxşı öyrənmədən onların təlimini və tərbiyəsini uğurla təşkil etmək olmaz.

Pedaqoji ünsiyyət “insan-insan” münasibətlərinə söykənir və ancaq onun əsasında inkişaf edir. Müəllim-şagird münasibətləri insan-insan münasibətləri olduğuna görə “subyekt-obyekt” terminləri ilə səciyyələndirilə bilməz. Onlar subyekt-subyekt münasibəti kimi əmələ gəlir və ancaq bu zəmində də psixoloji baxımdan səmərəli inkişaf edə bilər. ”Müəllim-şagird” münasibətlərini ”subyekt-obyekt” münasibətləri kimi araşdırmaq onların mahiyyətini ancaq təhrif etmək deməkdir. ”Subyekt-obyekt” münasibətləri daxilində nə müəllimin, nə də şagirdlərin bir şəxsiyyət kimi inkişaf etməsi üçün səmərəli şərait yaranmır. Müəllim-şagird münasibəti ancaq “subyekt-subyekt” münasibətləri kimi düzgün inkişaf edə bilər. Yeni pedaqoji təfəkkür bu önəmli ideyaya əsaslanır.

Müəllim-şagird münasibətlərində müxtəlif ünsiyyət tərzləri də vardır: 1. Birgə həvəs və yaradıcılıqla əsaslanan ünsiyyət. 2. Dostluğa əsaslanan mehriban ünsiyyət. 3. Şagirdlərlə müəyyən “məsafə”, pərdə saxlamaqla ünsiyyət. 4. Qorxudularaq hökmlü ünsiyyət. 5. Ələ salınaraq rişxəndli ünsiyyət. 6. Qılığa girərək ünsiyyət. Birgə həvəs və yaradıcılığa əsaslanan ünsiyyət müəllim və şagirdlərin mənəvi yaxınlığı əsasında qurulur. Bununla bərabər ünsiyyət dostluq, mehribanlıq, qarşılıqlı hörmət əsasında qurulmalıdır. Lakin bu o demək deyildir ki, müəllim-şagird arasında “pərdə” götürülməli hər ikisi “qardaşcasına” hərəkət etməlidirlər. Məsafəli ünsiyyətdə müəllim-şagird ünsiyəti məhdudlaşdırılır. Bu zaman belə sözlərə daha çox üstünlük verilrir: “Mənə qulaq asın, mən sizdən böyüyəm”, “Siz heç nə bilmirsiniz, mən hər şeyi bilirəm” və s. Belə ünsiyyət və yanaşma tərzi qarşılıqlı əməkdaşlığı, yaradıcılığı pozur və nəticədə pedaqoji uğursuzluğa gətirib çıxarır. Qorxu üzərində qurulan ünsiyyət zamanı isə müəllimin belə müraciəti vardır. “Mənə qulaq asın, yoxsa çağıraram lövhəyə...”, “İmtahanda baxarıq necə cavab verəcəksən, sənin üçün çox çətin olacaq”, “Siz məni hələ yaxşı tanımırsınız... görəcəksiniz... və s.”. Ələ salınaraq, rişxəndli ünsiyyət şagird şəxsiyyətini alçaldır. Müəllim uşaqlara çox yuxarıdan baxır, onların şəxsiyyətinə məhəl qoymadan şit zarafatlar və rişxənd edir.

**Məqalənin aktuallığı.** Müasir dövrümüzdə şagirdlərin şəxsiyyət kimi formalaşmasında və təlim keyfiyyətinin yüksəldilməsində müəllimin rolu böyükdür. Sinifdə pedaqoji üslubun düzgün seçilməsi pedaqoji mühitin səmərəliliyinin yüksəldilməsinin başlıca amillərindən biridir.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, məqalədə müəllimin pedaqoji üslubunun şagird şəxsiyyətinin inkişafına təsiri vurğulanır, pedaqoqun peşə qabiliyyətnin bu sahədə əhəmiyyəti xüsusi qeyd olunmaqla təsnifatı verilir. Həmçinin tədris prosesi zamanı pedaqoji ünsiyyətin məqsəd və məzmunu, eləcə də üslubları açıqlanır, bu istiqamətdə aparılmış tədqiqatların nəticələrinə toxunulur.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Praktik olaraq pedaqoji üslubun seçilməsi şagirdin təlim və tərbiyəsinə birbaşa təsir edir. Müəllim seçdiyi pedaqoji üslubun nəticəsini olduğu kimi şagird şəxsiyyətinin davranışında görür. Bu səbəbdən də doğru seçilmiş pedaqoji

üslubla şagirdin daxili aləminə nüfuz edib onun inkişaf səviyyəsini düzgün müəyylənləşdirib qiymətləndirmək mümkündür.

## Ədəbiyyat


1. Ə.S. Bayramov, Ə.Ə. Əlizadə. B19 Psixologiya: Ali məktəblər üçün dərslik. Bakı, 1989.
2. S.İ. Seyidov və M.Ə. Həmzəyev. Psixologiya. Bakı, 2007, 700 s.
3. А.Н. Леонтьев. Проблемы развития психики. М., 1972, с.342-550.
4. M.Ə. Həmzəyev. Pedaqoji psixologiya. Bakı, 1991.
5. Bityanova M.R. Məktəbdə psixoloji işin təşkili. M., 1998.


**С.А. Гаджылы**

## Влияние педагогического стиля учителя на развитие личности ученика

### Резюме

В данной статье подчеркивается роль и важность личности учителя в развитии личности ученика. Учитель должен понимать важность выбора правильного педагогического стиля в процессе общения с учениками. Показано влияние педагогического общения на развитие личности студента, стили проанализированы отдельно. Используя различную научную литературу, было определено, что качество урока будет выше, если в отношениях между учителем и учеником будут демократичность и понимание.

**S.A. Hajili**

## The influence of the teacher's pedagogical style on the development of the student's personality

### Summary

This article emphasizes the role and importance of the teacher's personality in the development of the student's personality. The teacher must understand the importance of choosing the right pedagogical style in the process of communication with students. The influence of pedagogical communication on the development of the student's personality was shown, the styles were analyzed separately. Using various scientific literature, it was determined that the quality of the lesson will be higher if there is democracy and understanding in the teacher-student relations.

**Redaksiyaya daxil olub:** 26.11.2020